# "Dəmir yumruq" Xankəndi stadionunun qapılarını açdı

Dünən Xanın kəndində daha bir möhtəşəm təntənə yaşandı…

Bütün diqqətlər Zəfər matçına yönəldi…

30 ildən sonra Xankəndi şəhər stadionu qapılarını doğmalarının üzünə açmışdı…

Lakin bu, heç də sıradan bir idman hadisəsi deyildi, o həm də böyük siyasi anlamı şərtləndirirdi…

Axı, Şanlı Zəfərimizlə bitən savaşın ən böyük avantürası məhz bu meydandan başlamışdı…

Nikol Paşinyan erməni rəzilliyinin ən iyrənc ifadəsi olan "Qarabağ Ermənistandır və nöqtə" sərsəmliyini bu meydanda səsləndirmişdi. Və bu ifadə Ermənistan-Azərbaycan münaqişəsinin dönüş anı oldu.

Şuşada bayrağımızı dalğalandırdıq və tarixi Zəfər qazandıq!

Xankəndidə Zəfər paradı keçirərək suverenliyimizi tam təmin etdik!

Dünən təkcə azarkeşlər deyil, hamı, 50 milyon azərbaycanlı Xankəndi stadionunda idi...

Müqəddəs şəhidlərimizin şad olan ruhları da orada idi…

Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında bütün xalq ayaqda dayanmışdı...

Bu möhtəşəm izdiham məğlub dünya erməniliyinə, onun havadarlarına aydın mesajlar verdi. Qalib Komandanın meydanda topa rəmzi toxunuşu isə onu göstərdi ki, yeni reallıqları yaradan, sülh müqaviləsinin şərtlərini diktə edən İlham Əliyev "dəmir yumruğ"u ilə başını əzdiyi dünya erməniliyini indi ayağında top kimi oynadır. 200 illik erməni xülyası indi ayağımızın altındadır.



Məğrur duruşlu, qətiyyətli Lider stadionda çıxışında bir daha 4 il öncə burada səslənən sərsəm açıqlamanı xatırladaraq dedi ki, Azərbaycanın Müzəffər Komandanı və onun qüdrətli ordusu Qarabağın kimə məxsus olduğunu 44 gündə sübuta yetirib, başqa şərhə ehtiyac yoxdur: "Dörd il bundan əvvəl bu stadionda bəziləri "Qarabağ Ermənistandır və nöqtə" demişdilər. Biz onlara sübut etdik ki, Qarabağ Azərbaycandır! Bundan sonra bu torpaqlarda Azərbaycan bayrağı əbədi dalğalanacaq. Biz azərbaycanlılar burada əbədi yaşayacağıq".

Bir sözlə, otuz il ərzində separatizmin qara rəmzinə çevrilən Xankəndidə bu gün erməni terrorçularının izi-tozu da yoxdur. Torpağın əsl sahibi qayıdıb və bundan sonra Xankəndi şəhər stadionunda, onun ətrafında silah səsləri deyil, "qol" sədaları, sülh, əmin-amanlıq mesajları ucalacaq.

Dünənki oyunun nəticələrindən asılı olmayaraq qalib də bəlli idi.

İlham Əliyevin söylədiyi kimi, qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir.

"Qarabağ" və Mərkəzi Ordu İdman Klubunun qarşılaşması da təbii ki, böyük rəmzi məna daşıyırdı. Çünki Qarabağ-Ordu-Xalq birliyi Zəfərimizin əsas mənbəyidir.

***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2023.- 22 dekabr, № 280.- S.1.